**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
_________professor C.E.Mahmudova

# Doktorant və dissertantların illik attestasiyası haqqında

# ƏSASNAMƏ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
_30_ oktyabr 2023-cü il tarixli iclasının
___03___№-li protokolu ilə təsdiq edilmişdir

Bakı - 2023

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Doktorant və dissertantlarının illik attestasiyası haqqında

# ƏSASNAMƏ

### 1.ÜMUMİ MÜDDƏALAR

1.1. Bu əsasnamə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (bundan sona Universitet) təhsil alan doktorant və dissertantların illik attestasiyasının məqsədini və keçirilmə qaydalarını müəyyən edir. İllik attestasiya - Universitet tərəfindən doktorantların elmi və elmi tədqiqat işlərinin illik yekunlarına dair keçirilən ekspertizadır. Elmi tədqiqat işinin yerinə yetirilməsinin qiymətləndirilməsi və attestasiya Universitet tərəfindən ildə bir dəfə təhsilalanın təsdiq edilmiş fərdi iş planına uyğun olaraq həyata keçirilir. Doktorantura təhsilinin əsas komponentlərindən biri də doktorantların işinin qiymətləndirilməsinin şəffaflıq əsasında həyata keçirilməsidir.

1.2. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktoranturasında illik attestasiyanın keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 iyul 2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları"na əsasən təşkil olunur.

1.3. Doktorantlar və dissertantlar ildə bir dəfədən az olmamaq şərtilə, hər ilin sonunda – dekabrda (əvvəlində yanvarda) ADMİU tərəfindən təsdiq olunmuş attestasiya haqqında mövcud Əsasnaməyə uyğun olaraq, attestasiyadan keçməlidirlər. Attestasiyanın keçirilmə müddəti kafedra və dekanlıq ilə razılaşdırılmaqla Elm və doktorantura şöbəsinin təqdimatı əsasında ADMİU rektoru tərəfindən müəyyən edilir və bu haqda məlumat bütün doktorant, dissertant, onların rəhbər və məsləhətçilərin diqqətinə çatdırılır. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir.

1.4. Doktorant və dissertant təhsil müddətində:

- peşə biliklərinə dərindən yiyələnməli;
- müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli;
- elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli;
- fərdi iş planını tam yerinə yetirməli;
- Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tatixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq imtahanlar verməli;
- elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli;
- elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirməli;
- elmi tədqiqat işini bitirməlidir.

1.5. "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə müvafiq olaraq, fəlsəfə doktoru imtahanları fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının **attestasiyasının** əsas tərkib hissəsi olub, dissertasiyanın ilkin müzakirəsinədək verilir və iddiaçının ixtisas üzrə bilik səviyyəsini müəyyən edir. Fəlsəfə doktoru imtahanları aşağıdakı fənlər üzrə verilir: iddia olunan ixtisas fənni (dissertasiya iki ixtisas üzrə hazırlandığı halda həmin ixtisas fənlərinin hər birindən); xarici dil (dissertasiyanı Azərbaycan və ya rus dillərində yazan və müdafiə edən iddiaçılar üçün ingilis, alman və ya fransız dillərindən biri); Azərbaycan dili (dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün əlavə doktorluq imtahanı). İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı iddiaçının seçiminə uyğun olaraq, dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində verilir. Fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır. İddiaçılara hər bir fəlsəfə doktoru imtahanı üzrə onun

nəticəsini özündə əks etdirən və Komissiyanın müəyyən etdiyi formada şəhadətnamə verilir. İmtahanlar ildə iki dəfə - yaz (aprel-may) və payız (oktyabr-noyabr) sessiyalarında keçirilir.

1.6. • Doktoranturada təhsil doktorantın (dissertantın) fərdi iş planı əsasında həyata keçirilir. Bu planın nümunəsi Elm və doktorantura şöbəsi tərəfindən verilir və bir aydan gec olmayan müddət ərzində doktorant (dissertant) və onun elmi məsləhətçisi tərəfindən bütün təhsil müddəti üçün tərtib edilir və lazımi imzalarla təsdiqlənərək şöbəyə təqdim olunur.

1.7. Fərdi iş planına uyğun olaraq hər bir mərhələnin və hər ilin sonunda doktorantlar tərəfindən yerinə yetirilən nəzəri və təcrübi tədqiqatların nəticələri barədə qısa hesabat hazırlanır, müvafiq kafedrada müzakirə edilir və **attestasiya** zamanı nəzərə alınır.

1.8. Doktorant (dissertant) fərdi iş planının yerinə yetirilməsi barədə vaxtaşırı şöbə, kafedra, fakültə iclaslarında hesabat verir. Doktorantların elmi işinin yerinə yetirilməsinə və tədrisinə cari nəzarət onların elmi rəhbəri və müvafiq kafedra tərəfindən həyata keçirilir.

1.9. Doktorantların bilik, bacarıq və vərdişlərinin səviyyəsi **attestasiya** yolu ilə qiymətləndirilir. Doktorantların biliyinin qiymətləndirilməsinin əsas məqsədi doktorantura təhsilinin keyfiyyətinə nəzarətə və onun yüksəldilməsinə xidmət edir. Doktorantların biliyinin qiymətləndirilməsi zamanı aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

- qiymətləndirmə meyarlarının ölçülən və etibarlı olması;
- qiymətləndirmədə müxtəlif metod və vasitələrdən istifadə olunması;
- qiymətləndirmədə ədalətlilik, obyektivlik, şəffaflıq prinsiplərinin təmin olunması və verilən qiymətin əsaslandırılması;

- qiymətləndirmə prosesində doktorantların özünüqiymətləndirmə bacarığının formalaşması, onlarda öz bilik və bacarıqlarını yaxşılaşdırmaq və öz təhsilinin keyfiyyətini yüksəltmək istəyinin yaradılması.
- 1.10. Təhsil proqramlarına daxil olan ayrı-ayrı fənlər üzrə doktorantların mənimsəmə səviyyəsi və təhsilin keyfiyyəti Universitet tərəfindən təsdiq edilmiş qaydalar əsasında **attestasiyası** zamanı müəyyənləşdirilir.

## 2. Attestasiyanın məqsədi:

Attestasiyanın keçirilməsində məqsəd doktorant və dissertantın fərdi iş planında cari (ötən) il üçün nəzərdə tutulmuş fəaliyyətinin dəyərləndirilməsidir:

- ✓ doktorantın (dissertantın) fərdi planının yerinə yetirilməsinə nəzarət;
- ✓ doktorantın (dissertantın) ixtisasına dair təhsil planının yerinə yetirilməsinə nəzarət;
- ✓ doktorantın (dissertantın) təhsil müddətinə uyğun olaraq dissertasiya işinin müəyyən olunmuş vaxtda müdafiəyə təqdim edilməsinin təmin olunması.

## 3. Attestasiyanın keçirilmə qaydaları

3.1. Akademik məzuniyyətində olmayan bütün doktorantlar (dissertantlar) müəyyən olunmuş tarixdə attestasiyada iştirak etməlidirlər. Akademik məzuniyyətində olan doktorantlar (dissertantlar) məzuniyyətləri bitdikdən sonra bir ay müddətində attestasiyadan keçməlidirlər.

3.2. Attestasiyadan keçməzdən əvvəl zəruri hallarda attestasiyadan keçirilməsinin məqsəd, vəzifə və metodlarının doktorantlara çatdırılması üzrə tədbirləri özündə cəmləşdirən lazımi hazırlıq işləri görülməlidir. Bu işi müvafiq kafedralar ilə birlikdə Elm və doktorantura şöbəsi təşkil edir.

3.3. Doktorant və dissertantların attestasiyası ildə bir dəfə təhkim olunduğu kafedra və fakültənin Elmi Şurası tərəfindən keçirilir. Attestasiyanın nəticəsi kafedra

və fakültə Elmi Şurasının iclas protokolunda əksini tapmalıdır. Daha sonra doktorant və dissertantların illik yekun attestasiyası rektorun sədrliyi ilə Attestasiya komissiyasında təşkil edilir.

3.4. Attestasiyanın keçirilməsi üçün doktorant (dissertant) kafedradan attestasiya vərəqəsini götürür, attestasiya olunan il üçün yerinə yetirdiyi işlər haqqında lazımi qeydləri aparır və kafedraya təqdim edir.

3.5. Ödənişli əsaslarla təhsil alan və illik təhsil haqqını ödəməyən doktorant və dissertantlar attestasiyaya buraxılmır. Bu haqqda kafedralar Elm və doktorantura şöbəsi tərəfindən məlumatlandırılır.

3.6. Doktorant (dissertant) elmi rəhbərinin də iştirak etdiyi kafedra iclasında cari/ötən il ərzində yerinə yetirdiyi işlər haqqında hesabat verir və fərdi iş planında nəzərdə tutulan işlərin nəticələrini təqdim edir. Doktorant (dissertant) eyni zamanda sonrakı il üçün iş planı haqqında məlumat verir. Elmi rəhbər isə hesabat ili ərzində doktorantın (dissertantın) fəaliyyətinə qiymət verməlidir.

3.7. Doktorantın (dissertant) il ərzində gördüyü işlər haqqında məruzəsinin dinlənilməsi və müzakirəsinin nəticəsinə uyğun olaraq onun növbəti ildə elmi-tədqiqat işinin davam etdirilməsinə dair qəbul olunmuş qərarın iclas protokolundan müvafiq çıxarışı hazırlanır. Attestasiya zamanı elmi rəhbərin, müvafiq kafedranın rəyi nəzərə alınır.

3.8. Elmlər doktoru proqramı üzrə doktorantlar hər il ADMİU və ya fakültə Elmi Şurasına fərdi iş planının yerinə yetirilməsi haqqında hesabat verir və həmin hesabat əsasında onun doktoranturada təhsilini davam etdirməsi barədə qərar qəbul olunur.

3.9. Attestasiyadan keçən doktorantın attestasiya komissiyasında (hansı komissiya) müzakirəsi tələbkarlıq, obyektivlik şəraitində aparılmalıdır.

3.10. Attestasiya keçirildikdən sonra Attestasiya vərəqi imzalanır və kafedranın (bəs fakültə) müzakirə protokolundan çıxarışla birlikdə (fərdi iş planı

imzalanır və kafedranın müzakirə protokolundan çıxarışla birlikdə müvafiq Fakültə Elmi Şurasına təqdim olunur. Bundan sonra fakültə Elmi Şurasının müzakirə protokolundan çıxarışla birlikdə...) Elm və doktorantura şöbəsinə təqdim edilir.

3.11. Kafedra və fakültə tərəfindən (bəs komissiya) attestasiya aşağıdakı kimi qəbul edilir:

- **Attestasiya olunsun** (nəzərdə tutulan işlər tam həcmdə yerinə yetirilib və növbəti ildə təhsilini davam etdirməsi tövsiyə olunur).

- **Şərti olaraq attestasiya olunsun** (nəzərdə tutulan işlərin müəyyən hissəsi yerinə yetirilib və kafedra tərəfindən müəyyən edilmiş müddət ərzində tam həcmdə yerinə yetirilməsi tələb edilir).

- **Attestasiya olunmasın** (üzrlü olmayan səbəbdən nəzərdə tutulan işlər yerinə yetirilməmişdir).

3.12. Attestasiyadan keçməli doktorant və dissertantlar üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, müvafiq sənədlər əsasında sonradan tutulmuş qrafikə uyğun attestasiyadan keçirlər.

3.13. Üzrlü olmayan səbəbdən nəzərdə tutulan işləri yerinə yetirməmiş doktorant (dissertant) attestasiyadan keçmədiyinə görə xaric olunsun.(Üzrlü səbəbi olmadan attestasiyada iştirak etməyən, təhkim olunduğu kafedra ilə əlaqə saxlamayan və ya attestasiyanı qeyri-məqbul nəticələrlə tamamlayan doktorant (dissertant) ötən hesabat dövründə attestasiyadan keçməmiş hesab olunur. Attestasiyadan məqbul olmayanlar şərti olaraq növbəti ildə təhsil almaq hüququna malik ola bilərlər. Belə halda rektorun müvafiq əmri ilə akademik borcu olan doktorant (və ya dissertant) əmrdə müəyyən edilmiş müddətə qədər qüsurları aradan qaldırmaqla təhsilini davam etdirir, əks halda isə xaric edilirlər).